





# "Beynəlxalq səhnə əsərləri müsabiqəsi" başa çatıb

**Akademik Milli Dram Teatrının direktoru, professor İsrafil İsrafilov görkəmli türk dramaturqu Haldun Tanerin anadan olmasının 100 illiyi münasibətilə keçirilən "Beynəlxalq səhnə əsərləri müsabiqəsi"nin qaliblərinin seçilməsi mərasimində iştirak edib.**

Qeyd edək ki, TÜRKSOY 2015-ci ili Türkiyənin tanınmış dramaturqu, yazıçı və jurnalist Haldun Tanerin (1915-1986) anadan olmasının 100 illiyi münasibətilə "Haldun Taner ili" elan edib.

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, İ. İsrafilov Avrasiya Yazarlar Birliyinin başçısı Yaqub Öməroğlunun dəvəti ilə beynəlxalq müsabiqənin münsiflər heyətinin üzvü kimi yarışmanın qaliblərinin elan olunması tədbirinə də qatılıb.

Müsabiqənin nəticəsi Ankarada elan olunub. Müsabiqəyə 18 ölkədən 109 əsər göndərilib. Qalibləri mükafatlandırma mərasimi 8 dekabr tarixində Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin "Kiçik teatr" binasında keçirilib.

Azərbaycan müsabiqəyə yazıçı-dramaturq, əməkdar incəsənət xadimi Afaq Məsudun "Mənsur Həllac" əsəri ilə qatılıb.

Haldun Tanerin həyat və yaradıcılığını, türkiyə teatr sənətini, onun tarixini tanıtmaq, eyni zamanda türk dünyası ölkələrinin teatrını, ədəbiyyatını, mədəniyyət tarixini öyrənmək məqsədi daşıyan yarışmanın ən böyük əhəmiyyəti bu ölkələr arasındakı yaradıcılıq işbirliyini formalaşdırmaq və genişləndirməkdir. Türk dünyası yazarları arasında yeni əsərlərin meydana gəlməsinə rəvac verən bu müsabiqədə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Tatarıstan, Başqırdıstan və s. ölkələr iştirak edib.

Müsabiqədə birinci yerə Başqırdıstandan Məryəm Burakayeva "Kölgə", ikinci yerə Qazaxıstandan Əkrəm Əhmədov "Kaşğarlı Mahmut", üçüncü yerə isə Azərbaycandan Afaq Məsud "Mənsur Həllac" əsəri ilə layiq görülüb.